Nazir Vendi Shermanla görüşdü

Yazan
28.09.13 17:02 -



Xarici işlər naziri Elmar Məmmədyarov ABŞ Dövlət katibinin siyasi məsələlər üzrə müavini Vendi Sherman ilə görüşüb.

Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətindən verilən məlumata görə, görüş Elmar Məmmədyarovun BMT Baş Assambleyasının 68-ci sessiyasında iştirakı ilə bağlı Nyu-Yorka səfəri çərçivəsində baş tutub.

Görüş əsnasında Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələrin inkişafı, Ermənistan-Azərbaycan münaqişəsinin həlli və BMT Təhlükəsizlik Şurasının gündəliyində duran Suriyada kimyəvi silahlardan istifadə edilməsi ilə əlaqədar vəziyyət kimi məsələlər müzakirə edilib.